

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 72 (24.209)

26 aprel 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Gürcüstanın müdafiə nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladzeni qəbul edib.

Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyi vurğulandı.

Bu ilin aprelində Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin ölkəmizə səfəri xatırlandı, səfər zamanı əlaqələrimizin daha da genişləndirilməsi ilə bağlı səmərəli müzakirələrin aparıldığı qeyd olundu.

Dövlətimizin başçısı və Gürcüstanın müdafiə naziri əməkdaşlığımızın perspektivlərini, regional təhlükəsizlik məsələlərini müzakirə etdilər.

## "Həmrəylik Halqası" – Azərbaycan Mərkəzi Avropanın gələcək enerji təchizatının mühüm bir hissəsini təşkil edəcək

### *Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana işgüzar səfəri*

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstan Respublikasına işgüzar səfərə gəlib.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Sofiya şəhərinin hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Bolqarıstanın Baş nazirinin müavini, nəqliyyat və kommunikasiya naziri Hristo Aleksiev və digər rəsmi şəxslər qarşıladılar.

* * *



Aprelin 25-də Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə təkbətək görüşü olub.

Görüşdə ölkələrimiz arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığı qeyd olundu.

Prezident Rumen Radev Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında Anlaşma Memorandumunun imzalanması tədbirində iştirak üçün Bolqarıstana səfər etdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirdi və "Həmrəylik Halqası" STRİNG layihəsinin uğurla həyata keçiriləcəyinə ümidvarlığını ifadə etdi.

Prezident İlham Əliyev səfərə dəvətə görə Prezident Rumen Radevə minnətdarlığını bildirdi.

Görüşdə "Həmrəylik Halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistem operatorları və SOCAR arasında Anlaşma Memorandumunun imzalanmasının əhəmiyyəti qeyd edildi. Ölkələrimiz arasında əməkdaşlıq məsələləri müzakirə olundu, bu xüsusda Azərbaycanın etibarlı tərəfdaş kimi Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə verdiyi töhfəsi vurğulandı.

Söhbət zamanı siyasi, iqtisadi, nəqliyyat, energetika və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

* * *

Aprelin 25-də Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında enerji əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev imzalanma mərasimində iştirak ediblər.

Anlaşma Memorandumunu Azərbaycanın energetika naziri Pərviz Şahbazov, Bolqarıstanın energetika naziri Rosen Hristov, Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto, Rumıniyanın energetika naziri Virgil-Daniel Popesku və Slovakiyanın iqtisadiyyat naziri Karel Hirman imzaladılar.

İmzalanma mərasimində Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım **Kadri Simsonun** videomüraciəti dinlənildi. Xanım Kadri Simson imzalanmış Anlaşma Memorandumunun regiona əlavə qaz təchizatı baxımından alternativ marşrutlar üçün çərçivə təmin edəcəyini vurğuladı, bu məsələdə Azərbaycanın roluna toxunaraq dedi: "Azərbaycan Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu sübuta yetirdi. Bu qış enerji təchizatının təhlükəsizliyini təmin etmək üçün Azərbaycan tərəfindən enerji təchizatı həlledici olmuşdur. Komissiya Xəzər dənizindən təbii qazın Mərkəzi və Şərqi Avropaya çatdırılması üçün alternativ marşrutların təmin edilməsi üzrə əlavə səyləri dəstəkləyir".

Sonra çıxışlar oldu.

Azərbaycanın energetika naziri **Pərviz Şahbazov** Anlaşma Memorandumunun əhəmiyyətinə toxundu, bunun "Həmrəylik Halqası" təşəbbüsünün reallaşması üçün böyük əhəmiyyət daşıdığını vurğulayaraq dedi: "Ölkələrimiz arasında məhsuldar münasibətlərin, yüksək həmrəyliyin və strateji tərəfdaşlığın təmin edilməsi məqsədini daşıyan liderlərimizin uzaqgörən siyasəti və yorulmaz səyləri nəticəsində bu gün biz Azərbaycandan Avropa İttifaqına təbii qazın təchiz edilməsinin yeni marşrutunun formalaşmasının şahidi oluruq. Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiya ötürücü sistem operatorları ilə SOCAR arasında Memorandumun imzalanması "Həmrəylik Halqası" təşəbbüsünün reallaşması üçün böyük bir addımdır. Bu yeni layihə Cənub Qaz Dəhlizi sayəsində iki ildən də artıq müddət ərzində tərəfdaşlarımız üçün etibarlı və sabit enerji təchizatında strateji rol oynayan ölkədən – Azərbaycandan olan təbii qazın alternativ marşrut vasitəsilə əlavə bazarlara çıxışını təmin edəcək. "Həmrəylik Halqası" təşəbbüsü, həmçinin Cənub Qaz Dəhlizinin genişlənməsi vasitəsilə imkanlar təqdim edir və eyni zamanda enerji sahəsində Azərbaycan və Avropa İttifaqı arasında strateji tərəfdaşlıq üzrə Anlaşma Memorandumunun müddəalarının həyata keçirilməsinə töhfə verir. Mən bu yeni təşəbbüslə bağlı bizim səylərimizə uğurlar diləyirəm. Çox sağ olun".

Bolqarıstanın energetika naziri **Rosen Hristov** Anlaşma Memorandumunun imzalanmasını Avropanın enerji təhlükəsizliyinə nail olmaq yolunda mühüm addım olduğunu vurğuladı. Bolqarıstanın Avropa İttifaqına, Mərkəzi və Cənub-Şərqi Avropaya təbii qaz tədarükünün təhlükəsizliyini yaxşılaşdırmaq məqsədi daşıyan "Həmrəylik Halqası" (STRING) layihəsinin təşəbbüskarlarından biri olduğunu vurğulayan nazir bildirdi ki, indi region ölkələri bu sahədə öz məqsədlərinə nail ola bilərlər. O, hazırda regionun digər ölkələrinin də bu təşəbbüsə qoşulması imkanları üzərində birgə iş aparıldığını diqqətə çatdırdı.

Macarıstanın xarici işlər və ticarət naziri **Peter Siyarto** Azərbaycandan Avropaya qazın idxalı məsələsini vurğulayaraq bu marşrutun Avropa üçün önəmini qeyd edərək dedi: "Mərkəzi Avropada şaxələnmə məsələsinə gəldikdə ən yaxşı, ən real və ən səmərəli həll yolu qazı Azərbaycandan idxal etməkdir. Buna heç bir şübhəmiz yoxdur. Biz özümüzə, ən azından özümüzə düzünü deməliyik. "Həmrəylik Halqası" olmasa, Avropa maliyyələşməsi olmasa, onda Mərkəzi Avropanın, həqiqətən də, mərkəzində yerləşən bizlərin Azərbaycandan əhəmiyyətli qaz həcmini almağa heç bir imkanı olmayacaq. Bizə mütləq Türkiyə də lazım olacaq. Mərkəzi Avropanın gələcək enerji təchizatının mühüm bir hissəsini təşkil edəcək Azərbaycandan olan qaz həcminə güvənmək üçün ümid edirik ki, onlar da gələn dəfə təmsil olunaraq razılaşmanın bir hissəsi olacaqlar".

Rumıniyanın energetika naziri **Virgil-Daniel Popesku** Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın ötürücü sistem operatorları ilə SOCAR arasında Anlaşma Memorandumunun imzalanmasının əhəmiyyətini xüsusi vurğulayaraq dedi ki, bu, layihədə iştirak edən ölkələr arasında uğurlu və sıx əməkdaşlığın qurulmasının göstəricisidir. Bu gün dünyanın enerji təchizatında ciddi böhran və enerji təhlükəsizliyi üçün böyük risklərlə üzləşdiyi bir zamanda bu əməkdaşlıq xüsusilə mühüm əhəmiyyət kəsb edir. Rumıniyalı nazir bu təşəbbüsün bütün regionun ümumi inkişafına töhfə verəcəyini vurğulayaraq ölkəsinin layihəyə fəal dəstək verdiyini qeyd etdi.

Slovakiyanın iqtisadiyyat naziri **Karel Hirman** isə Azərbaycanla əməkdaşlığın önəminə toxunaraq dedi: "Bu gün biz Anlaşma Memorandumunu imzalamaqla aydın siyasi mesaj göndəririk. Bu mesaj ondan ibarətdir ki, biz Avropaya təbii qazın idxalı üçün yeni dəhliz yaratmağa, tərəfdaşımız olan Azərbaycanla əməkdaşlıq etməyə və qaz təchizatının ümumi şaxələnməsinə töhfə verməyə hazırıq. Slovakiya Azərbaycandan əlavə qaz təchizatını təmin etmək üçün regionumuzdakı qazötürücü sistemi operatorlarının mövcud infrastrukturdan istifadə edilməsi və onun müasirləşdirilməsi çağırışını alqışlamışdır. Mən bizim qazötürücü sistem operatorlarının Azərbaycandan Mərkəzi və Şərqi Avropaya yeni dəhlizin yaradılması ilə bağlı təşəbbüsünün reallaşdırılmasına və SOCAR ilə əməkdaşlığa Slovakiya İqtisadiyyat Nazirliyinin tam dəstəyini ifadə etmək istəyirəm. Yekunda şəxsi fikrimi bildirmək istəyirəm. Mən neft və qaz mühəndisiyəm və Sovet İttifaqının dağılmasından sonrakı onilliyi xatırlayıram. Mən ittifaqın dağılmasından sonra neft hasilatı üzrə Azərbaycanın yeni neft layihələrini xatırlayıram. Mən Azərbaycanın nəhəng neft-qaz layihələrinin reallaşmasında cənab Prezident Heydər Əliyevin əvəzsiz xidmətlərini xatırlayıram. İnanıram ki, biz indi qaz idxalı sahəsində ölkələrimizin Azərbaycanla əməkdaşlığının yeni fəslinə start verəcəyik. Çünki Azərbaycan və SOCAR enerji təchizi üçün uzunmüddətli, etibarlı və dürüst tərəfdaşdır. Hesab edirəm ki, növbəti onillikdə biz yaxşı tərəfdaş olacağıq və birlikdə ölkələrimizin Azərbaycanla əməkdaşlığının yeni erasını yaradacağıq. Çox sağ olun".

*Ardı 2-ci səhifədə*

***

Azərbaycan dövlətinin başçısı mərasimdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Hörmətli Prezident Radev.

Hörmətli nazirlər, xanımlar və cənablar.

Əvvəlcə, mən bu təşəbbüsə görə Prezident Radevə təşəkkürümü bildirmək istərdim. Bu, enerji resurslarının daha da şaxələndirilməsi, o cümlədən enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətində vaxtında atılan çox mühüm addımdır. Altı ay əvvəl mən Bolqarıstana rəsmi səfər etdim. Beləliklə, altı ay keçdikdən sonra yenə buradayam. Həmin vaxt, biz Yunanıstan ilə Bolqarıstan arasında interkonnektor vasitəsilə inteqrasiya mərasimində iştirak etdik. Bu layihə Azərbaycanın təbii qaz təchizatının coğrafiyasını genişləndirmək imkanını yaratdı. Bu layihə Avropada enerji təhlükəsizliyinin gücləndirilməsinə artıq töhfə verir. Bir ay əvvəl Prezident Radev Azərbaycanda bizim qonağımız oldu. Bu, həqiqətən, ölkələrimiz arasında əməkdaşlıq səviyyəsini göstərir. O, siyasi dialoqun dinamikasını nümayiş etdirir və göstərir ki, Bolqarıstan və Azərbaycan nəinki strateji tərəfdaş, o cümlədən əsl dost ölkələrdir.

Bu gün imzalanmış Anlaşma Memorandumu icra olunduqdan sonra Avropada enerji təhlükəsizliyini birmənalı olaraq gücləndirəcək və Azərbaycan üçün daha çox Avropa ölkəsinə daha çox qazı ixrac etməyə fürsət yaradacaq. Bu gün Enerji Komissarı xanım Simsonun, Avropa Komissiyasının digər rəsmilərinin və dostlarımızın artıq qeyd etdiyi kimi, Azərbaycan Avropanın, mən deyərdim ki, nəinki enerji, o cümlədən bir sıra digər sahələrdə də etibarlı tərəfdaşıdır. Sizə məlumat vermək istəyirəm ki, Avropa İttifaqının 9 üzv dövləti ilə Azərbaycan "Strateji Tərəfdaşlıq haqqında" Bəyannamə və ya Sazişlərə imza atıb və qəbul edib. Bu o deməkdir ki, Avropa İttifaqına üzv dövlətlərin üçdəbiri Azərbaycanın strateji tərəfdaşıdır və bu tərəfdaşlığın çox güclü gələcəyi var.

Əminəm ki, bu gün keçirilən mühüm mərasim əməkdaşlığımızın gücləndirilməsində atılan növbəti addım olacaq. Ötən ilin iyul ayında Azərbaycan və Avropa Komissiyası "Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nu imzaladılar. Onun əsasında biz 2027-ci ilə qədər Avropa İttifaqı bazarına qaz təchizatımızı iki dəfə artırmağı planlaşdırırıq. 2021-ci ildə biz Avropaya 8 milyard kubmetr qazı çatdırdıq, bu il isə 12 milyard kubmetri hədəfləyirik. Beləliklə, həmin həcm bu il üçün planlaşdırdığımız 24,5 milyard kubmetr səviyyəsində ümumi qaz ixracımızın, təxminən, yarısını təşkil edəcək. Təbii ki, qaz hasilatı və ixracımız artacaq. Çünki biz hasilatı mövcud qaz yataqlarında artıracağıq və gələn illərdə isə yeni yataqlarda təbii qazın hasilatını gözləyirik. Bu gün Azərbaycan qazı Gürcüstana, Türkiyəyə, Yunanıstana, Bolqarıstana və İtaliyaya ixrac edilir. Bu ildən başlayaraq qaz Rumıniyaya da çatdırılır. Əgər bütün lazımi interkonnektorlar olarsa, bu ilin sonundan etibarən biz Macarıstana və Slovakiyaya qaz təchizatına başlamağı planlaşdırırıq.




Biz yerli qazpaylayıcı sistemin qurulması məqsədilə Albaniya ilə danışıqlar prosesindəyik. Çünki Cənub Qaz Dəhlizi Albaniyanın ərazisindən keçir. Eyni zamanda Slovakiya "Həmrəylik Halqası"nın üzvü kimi əminəm ki, yaxın vaxtlarda enerji sahəsində bizim tərəfdaşımıza çevriləcək. Biz qaz təchizatımızın coğrafiyasını 6 ölkədən, ən azı 10 ölkəyə qədər genişləndirəcəyik. Mən "ən azı" ona görə deyirəm ki, fikrimcə, bu, planların sonu deyil. Biz Avropanın qaz bazarında fəaliyyətimizi daha da genişləndirməyi planlaşdırırıq. Tərəfdaşlardan ibarət güclü komandanı yaratmaq kimi bu təşəbbüsdə Bolqarıstan Prezidenti cənab Radevin xüsusi rolunu qeyd etmək istərdim. Əminəm ki, "Həmrəylik Halqası" birgə geniş planlarımızın icrasında mühüm rol oynayacaq.

Mən, həmçinin Sizə bildirmək istərdim ki, təbii qaz Azərbaycanın Avropaya ixrac etdiyi yeganə enerji məhsulu deyil. İyirmi ildən artıqdır ki, biz xam nefti ixrac edən iri təchizatçı kimi etibarlı tərəfdaşıq. Neft-kimya məhsulları və elektrik enerjisi, həmçinin ixracımızın bir hissəsidir. Mən, həmçinin enerji inkişaf yolunu xatırlatdığına görə Slovakiyanın nazirinə təşəkkürümü bildirmək istəyirəm. Tam həqiqətdir ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra üç ildən az müddətdə, 1994-cü ildə müqavilə imzaladı. Sonradan həmin müqavilə "XX əsrin müqaviləsi" adlandırıldı. Ölkəmiz ilk dəfə olaraq Xəzər dənizində nefti hasil və ixrac etmək məqsədilə xarici neft şirkətlərini dəvət etdi. Bir sözlə, bu gün biz XXI əsrin layihəsini həyata keçiririk və onun miqyası genişlənir.

Enerji sahəsində etibarlı tərəfdaş kimi Azərbaycan bütün hədəflərə nail olmaq üçün bu istiqamətdə addımları davam etdirməyə birmənalı olaraq hazırdır. Eyni zamanda mən sizə bildirmək istəyirəm ki, üç əsas enerji infrastrukturu layihəsinin uğurlu tamamlanmasından sonra, yəni – iki neft boru kəməri – biri Xəzərdən Aralıq dənizinə, digəri isə Xəzərdən Qara dənizə gedən boru kəməri və uzunluğu 3500 kilometr olan Cənub Qaz Dəhlizindən sonra hazırda biz Azərbaycanın bərpa olunan enerjinin istehsalı və ixracı mənbəyinə çevrilməsi üzərində çalışırıq. Azərbaycan 25 qiqavatdan artıq bərpa olunan enerjinin istehsalı məqsədilə bərpa olunan enerji sahəsində aparıcı beynəlxalq şirkətlərlə müqavilələri və anlaşma memorandumlarını imzalayıb. İlk külək və günəş enerjisi stansiyalarının tikintisi başlayıb. Azərbaycanda bərpaolunan enerjinin hesablanmış potensialı, təxminən, 200 qiqavatdır. Bu həcmə Xəzər dənizinin Azərbaycan sektorunda 157 qiqavat da aiddir. Əlbəttə ki, yaşıl enerjinin əsas ixrac istiqaməti Avropadır.

Beləliklə, biz fəal enerji diplomatiyamızı davam etdiririk. Neft meqalayihələrindən tutmuş, hazırda qaz, sonra yaşıl hidrogenə qədər layihələr var. Bütün bunlardan əlavə, bizim aramızda güclü ötürmə xətləri olacaq və bu, tamamilə yeni vəziyyət yaradacaq. Bir sözlə, biz Avrasiyanın enerji xəritəsini yenidən cızırıq.

Yekun olaraq hamımızı Anlaşma Memorandumunun imzalanması münasibətilə təbrik etmək istəyirəm və birgə planımızın ən yaxın vaxtlarda icrasına ümid edirəm. Sağ olun.

***

Sonra Bolqarıstan dövlətinin başçısı çıxış etdi.

**Prezident Rumen Radevin çıxışı**

– Hörmətli Prezident Əliyev.

Hörmətli nazirlər.

Zati-aliləri, xanımlar və cənablar.

"Həmrəylik Halqası" təşəbbüsünə start verən Memorandumun imzalanma mərasimində qonaq qismində iştirak etmək mənim üçün şərəfdir. İlk növbədə, mənim bugünkü tədbirdə xüsusi qonaq qismində iştirak etməklə bağlı təklifimi qəbul etdiyinə görə Prezident Əliyevə minnətdarlığımı bildirmək istərdim. Deyə bilərəm ki, bugünkü uğur əhəmiyyətli dərəcədə Bolqarıstanla Azərbaycan arasında etibarlı, uzunmüddətli strateji əməkdaşlıqla əlaqədardır. Son bir ildə bu əməkdaşlıq çox uğurla inkişaf edib və hazırda artıq yeni müstəvidədir.

Prezident Əliyev Azərbaycanın etibarlı ticarət tərəfdaşı olduğunu sübut etdi. On ildən artıq müddət bundan əvvəl imzaladığımız müqaviləyə əsasən Bolqarıstanın artıq bir ildən çoxdur, Azərbaycan tərəfindən etibarlı şəkildə təchiz olunduğu faktına əlavə etməli heç nə yoxdur. Bütün qlobal siyasi faktlara baxmayaraq, Azərbaycan müqavilənin şərtlərinə ciddi şəkildə əməl edir. Azərbaycan təkcə Bolqarıstanın deyil, həm də Avropa İttifaqının strateji tərəfdaşıdır. Bu, ötən ilin iyulunda, Azərbaycanın Avropa Komissiyası ilə enerji sektorunda strateji əməkdaşlığa və xüsusilə Avropa İttifaqına əlavə həcmdə qaz təchizatına dair Memorandum imzalaması ilə təsdiq olundu. Buna baxmayaraq, böyük sual qalmaqdadır. Bu həcmdə qaz Avropa İttifaqına konkret olaraq necə çatdırılacaq? Biz qazın qarşıdakı illərdə Avropaya çatdırılacağı barədə düşünürdük. İndi isə mən bu məsələ ilə bağlı təşkilatçılıqlarına və çevik reaksiyalarına görə nazirlərə minnətdarlığımı bildirməliyəm. Bu həll təkcə bizim ölkələrimiz üçün deyil, həm də bütün Mərkəzi və Cənub-Şərqi Avropaya ən sürətli, ən səmərəli və ən sərfəli şəkildə şaxələndirmə istiqamətində həlldir.

Mən Avropa Komissiyasının Prezidenti xanım Fon der Lyayenə, Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsona, Yunanıstan və Türkiyə tərəfinə minnətdarlığımı bildirmək istərdim. Onlar hamısı bu təşəbbüsü dəstəklədilər, çünki bu insanlar olmasaydı, bu təşəbbüs həyata keçirilə bilməzdi. Məhz bu səbəbdən biz bu təşəbbüsü "Həmrəylik Halqası" adlandırdıq. Çünki, xüsusilə bizim tərəfdaşlarımızın etibarlı qaz təchizatına ehtiyacı olduğu bir zamanda, həmrəylik və əməkdaşlıq təməldir. Çünki Ukraynadakı müharibə bizi mehriban qonşuluq, həmrəylik və əməkdaşlıq anlayışlarının yeni ölçülərini axtarmağa vadar etdi. Bu, əsasən, beynəlxalq logistika xəritəsinə dəyişikliklər etmək imkanına malik olmaq üçün bizdən yeni həllər, yeni marşrut və təchizat axtarmağı tələb edir. Bu təşəbbüs bu istiqamətdə uğurun nümunəsidir. Aydındır ki, bugünkü Memorandumun imzalanması bizim aramızda yeni əməkdaşlıq üçün çox güclü siqnaldır. Bu, ölkələrimizin qaz təchizatı şəbəkələrinin həcmini, həmçinin aramızdakı qarşılıqlı əlaqəni genişləndirəcək.

Daha bir mühüm məqam ondan ibarətdir ki, bu təşəbbüs bizim ambisiyalarımızın səviyyəsini artırır. İndi biz artıq digər daha mühüm layihələr barədə danışmağa başlamışıq. Biz gələcəyin enerjisi – yaşıl hidrogenin nəqli barədə danışmağa başlamalıyıq. Bir qədər sonra biz Prezident Əliyevlə SOCAR-ın Sofiyada yeni ofisinin açılışını edəcəyik. Mən cənab Prezident Əliyevə məlumat vermək istərdim ki, Bolqarıstanın tənzimləyici qurumu artıq "SOCAR Trading"ə Avropa ərazisində təbii qaz ticarəti ilə məşğul olmaq üçün lisenziyasını təsdiqləyib. Cənab Prezident Əliyev, mən bu münasibətlə Sizi təbrik etmək istərdim və inanıram ki, biz gələcəkdə uğur qazanacağıq. Çünki geosiyasi vəziyyət, ilk növbədə, birlikdə olmağı və ən yaxşı həllər axtarmağı tələb edir. Sizin hamınıza uğurlar arzulayıram.

***

Qeyd edək ki, Anlaşma Memorandumu Azərbaycandan Avropaya əlavə qazın tədarükü üçün 4 ötürücü sistem operatoru ilə SOCAR arasında əməkdaşlığın istiqamətlərini müəyyən edir. Əlavə qaz tədarükü "Həmrəylik Halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistemləri vasitəsilə həyata keçiriləcək.

* * *

Aprelin 25-də Sofiyada SOCAR-ın Bolqarıstan Respublikasındakı ofisinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev açılış mərasimində iştirak ediblər.

Dövlət başçıları ofis binasının rəmzi açılışını bildirən lenti kəsdilər, burada yaradılan şəraitlə tanış oldular.

Binada ofis əməkdaşlarının fəaliyyəti üçün hər cür şərait yaradılıb.

Qeyd edək ki, enerji sahəsində əməkdaşlıq sürətlə inkişaf edən Azərbaycan-Bolqarıstan əlaqələrində mühüm yer tutur. Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana sonuncu – 2022-ci il 30 sentyabr-1 oktyabr tarixli rəsmi səfəri və həmin səfər çərçivəsində Yunanıstan-Bolqarıstan qaz interkonnektorunun istismara verilməsi ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıqda tamamilə yeni səhifə açdı. Dövlətimizin başçısının bugünkü səfəri zamanı Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında Anlaşma Memorandumunun imzalanması isə enerji resurslarının nəqlinin daha da şaxələndirilməsi, o cümlədən enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətində vaxtında atılan çox mühüm addımdır. Bütün bunlar SOCAR-ın Bolqarıstandakı fəaliyyətinin genişləndirilməsi zərurətini yaradır. Bolqarıstanın tənzimləyici qurumu artıq "SOCAR Trading"ə Bolqarıstan ərazisində təbii qaz ticarəti ilə məşğul olmaq üçün lisenziyanı təsdiqləyib. SOCAR-ın Bolqarıstandakı ofisinin açılması şirkətin Avropa bazarında fəaliyyətinin daha da genişləndirilməsinə mühüm töhfə verəcək.




* * *

Aprelin 25-də Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev nahar ediblər.

* * *

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasına işgüzar səfəri başa çatıb.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Sofiya şəhərinin hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Bolqarıstanın Baş nazirinin müavini, nəqliyyat və kommunikasiya naziri Hristo Alekseiv və digər rəsmi şəxslər yola saldılar.

**AZƏRTAC**

2023-cü il "Heydər Əliyev İli"dir

# Ümummilli Liderin yubileyinə həsr olunan dəyərli monoqrafiya

*AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin müəllifi olduğu, yenicə işıq üzü görən "Heydər Əliyev siyasəti: tarix və müasirlik" adlı monoqrafiya Azərbaycan tarixində, ölkəmizin hərtərəfli inkişafında, dünya dövlətləri arasında layiqli yer tutmasında müstəsna xidmətləri olan dahi şəxsiyyətin 100 illik yubileyinə ithaf olunub. AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin elmi redaktorluğu ilə geniş oxucu kütləsinə xitab edən nəşrdə 30 ildən artıq bir dövrdə əbədiyaşar ideyaları və müdrik siyasəti ilə Azərbaycanın uğurlarının memarı olan dahi şəxsiyyətin böyüklüyündən, fenomen keyfiyyətlərindən söhbət açılır.*




Ulu Öndərin dövlətçilik təlimi və onun tərkib hissələrinin önə çəkildiyi kitabı mütaliə etdikdə dəyərli nəşrin ilk səhifəsində yer alan, dahi şəxsiyyətin hər bir azərbaycanlıya əsl həyat örnəyi, amalı aşılayan fikirlərinin dərindən dərkinə varılır: ***"Biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır".***

Giriş hissəsində "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" ölkə Prezidentinin Sərəncamının yerləşdirildiyi monoqrafiya ön söz və VI fəsildən ibarətdir. "Heydər Əliyev şəxsiyyəti və siyasəti" adlanan birinci fəsildə müəllif xalqımızın tarixində həmişəlik qalan, onu dünyada tanıdan görkəmli dövlət xadimini "öyrənilməmiş dünyaya" bənzədir, Azərbaycan dövlətinin memarı, dünya miqyaslı siyasətçi kimi mütərəqqi siyasi fəaliyyətindəki Türk dünyası məsələlərindən danışır, türk xalqının iki dahi şəxsiyyəti – Mustafa Kamal Atatürk və Heydər Əliyevin tarixi missiyalarındakı oxşarlıqları geniş təhlil süzgəcindən keçirərək faktlara söykənən nümunələrlə, sadə dillə izahlı şəkildə oxucularda dolğun, aydın fikir formalaşdırır. Bu fəsildə dahi azərbaycanlı haqqında Y.Hovari, R.Reyqan, B.Kilinton kimi dünya siyasətinin bir sıra nüfuzlu şəxslərinin söylədiyi hikmətli sözlər, aforizmlər yer alır. "Son yüzillikdə Heydər Əliyev gücündə ağıllı dövlət başçısı Azərbaycanda olmamışdır", "Heydər Əliyev... iti ağlı, güclü məntiqi, fenomen yaddaşı olan qüvvətli bir şəxsiyyət, sözün həqiqi mənasında, kompüter insandır...", "O nəinki Azərbaycanı və Amerikanı, bütün dünyanı idarə edə bilən dövlət xadimidir" kimi ifadələr Ulu Öndərin dünya siyasi mərtəbəsindəki ali yerini, məqamını göstərir. Bu fikirlər həm də hər bir azərbaycanlıya böyük qürur hissi bəxş etməklə görkəmli dövlət xadiminin ***"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!"*** ideyasını xatırladır. Monoqrafiyanın ilk fəslində 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın birinci katibi seçilən dahi şəxsiyyətin 14 il respublikanı idarə etməsindən, həmin illərdə Azərbaycanda kənd təsərrüfatı, tikinti, nəqliyyat, rabitə sahələrinin yenidən qurulma prosesindən, SSRİ-nin ən nüfuzlu ali məktəblərinə hər il 800-dən artıq azərbaycanlı gənci göndərərək apardığı milli zabit kadr siyasətindən bəhs olunur. Həmçinin "Ulu Öndər siyasətinin gücü nədə idi?" sualına cavab axtarılır. Qeyd olunur ki, Onun atdığı addımlar, irəli sürdüyü problemlər, qəbul etdiyi qərarlar, söylədiyi fikirlər öz aktuallığı, düzgünlüyü, obyektivliyi və hər cəhətdən ölçülüb-biçilməsi ilə ətrafdakıları heyrətləndirmiş, dahi şəxsiyyətə siyasət aləminin patriarxı adını qazandırmışdır. Hətta dünyanın ən görkəmli siyasət və dövlət xadimləri dahi şəxsiyyət Heydər Əliyevlə məsləhətləşdiklərini, ondan öyrəndiklərini dönə-dönə etiraf etmişlər. Siyasətçilər bu dahi insanı "liderlərin lideri" adlandırırmışlar.

I fəsildə XX əsrin 80-ci illərinin əvvəllərində Ulu Öndərin öz şəxsiyyəti ilə türkçülük düşüncəsini, türkçülük faktını SSRİ kimi nəhəng imperiyanın ən ali iyerarxiyasına qədər gətirib çıxarmasından, buna görə dünyanın onu "Kremldə ucalan türk bayrağı" təqdimatı ilə tanımasından, Türk dövlət başçılarının zirvə toplantılarının əhəmiyyətindən də söz açılır. Burada, eyni zamanda dünya siyasi mənzərəsini dəyişən "Əsrin müqaviləsi", "Böyük İpək Yolu", TRASEKA, TASİS proqramları kimi qlobal layihələrin həyata keçirilməsində, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, TÜRKSOY-un, Türk Yazarlar Birliyinin yaradılmasında, eləcə də Azərbaycanın müstəqil türk dövləti kimi dünyada tanıdılmasında, Türk dünyasına məxsus dəyərli maddi-mənəvi irslərin təbliğində, yubileylərin, görüşlərin keçirilməsində, onlarla taleyüklü məsələnin irəli sürülməsində, müzakirəsində, həllində Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri olduğu vurğulanır. Həmin fəsildə türk xalqının iki dahi şəxsiyyəti – Mustafa Kamal Atatürk və Heydər Əliyevin ayrı-ayrı dövrlərdə xalqını, ölkəsini nicat yoluna çıxarmalarının oxşar cəhətləri izah edilir, Türkiyə Cümhuriyyətinin Atatürkün səngərdəki qəhrəmanlığının və müdrikliyinin, Azərbaycan dövlətinin isə Heydər Əliyev müdrikliyinin və qəhrəmanlığının nəticəsi kimi meydana gəldiyi qənaətinə varılır.

Monoqrafiyanın "Heydər Əliyevin Azərbaycana qayıdışı. Naxçıvanın milli-azadlıq hərəkatının mərkəzinə çevrilməsi. Müstəqilliyə doğru ilk dönüş" sərlövhəli ikinci fəslində 20 Yanvar hadisələri zamanı bütün həyati təhlükələrə, təxribatlara, təzyiqlərə baxmayaraq, Ümummilli Lider Heydər Əliyevin Moskvada SSRİ Nazirlər Soveti yanında Azərbaycan SSR-in daimi nümayəndəliyinə gedərək faciəni qəti şəkildə pisləməsindən, 1990-cı il iyul ayında Azərbaycana qayıdışından, Naxçıvanın milli azadlıq hərəkatının mərkəzinə çevrilməsindən, ölkəmizin müstəqilliyə doğru böyük dönüşündən bəhs edilir. Həmçinin bu fəsildə Ulu Öndərin adı ilə bağlı olan Azərbaycanın dövlətçilik tarixi üçün xüsusi önəm daşıyan Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözlərinin çıxarılması, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Ali Məclis adlandırılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilməsi, həmçinin 1991-ci il 3 sentyabr tarixdə Ümummilli Liderin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri seçilməsi barədə, "Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması haqqında", "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozların ləğv edilməsi və onların əsasında şəxsi təsərrüfatların yaradılması haqqında", "Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında", "31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması haqqında" və dövlətçiliyin hüquqi bazasını təşkil edən digər qərarlar şərh olunaraq onlar müstəqilliyə doğru böyük dönüş kimi xarakterizə edilir. Həmçinin Azərbaycan SSR Ali Sovetinin 1991-ci il 5 fevral və 7 mart tarixli iclasları, Ulu Öndər Heydər Əliyevin qətiyyətlilik, cəsarətlilik rəmzinə çevrilən faktlarla zəngin tarixi çıxışları şərh olunur.

"Heydər Əliyevin dövlətçilik təlimi" adlı üçüncü fəsildə Heydər Əliyevin dövlətçilik təliminin tərkib hissəsi kimi Azərbaycanda həyata keçirilən elm və təhsil siyasətindən, elm, təhsil sahəsində yüksəkixtisaslı kadrların, intellektli gənclərin yetişməsi üçün yaradılan şəraitdən söhbət açılır, Ulu Öndərin ziyalılarla görüşdə səsləndirdiyi fikirlərə geniş yer verilir, elmin inkişafı sahəsində irəli sürdüyü müddəalar qeyd olunur. Bu hissədə AMEA-da islahatların aparılması, onun idarəetmə və təşkilat sisteminin təkmilləşdirilməsi, elmi idarə və xidmət müəssisələrinin işinin səmərəliliyinin yüksəldilməsi, Naxçıvan Bölməsinin yaradılması, təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyası, təhsil müəssisələri şəbəkəsinin optimallaşdırılması, ali təhsil ocaqlarına muxtariyyət statusunun verilməsi istiqamətində Azərbaycan elminin böyük hamisi kimi dahi şəxsiyyət tərəfindən atılan mütərəqqi addımlar, onların nəticələri, eyni zamanda ümumi, peşə, ali təhsil sahəsində verilən qərarların, imzalanan sərəncamların ölkəmizə qazandırdığı nailiyyətlər geniş təhlil süzgəcindən keçirilir. Azərbaycan mədəniyyətinin himayədarı kimi Ulu Öndərin milli mədəniyyətin bütün sahələrində yüksəlişə, inkişafa nail olmasından, bu sahədə xalqı, Vətəni qarşısında misilsiz tarixi xidmətlərindən, ölkəmizin ictimai-siyasi, iqtisadi və milli-mənəvi inkişafındakı mühüm rolundan danışılır. Həmçinin bu fəsildə gənclərimizin əsl Azərbaycan vətəndaşı kimi formalaşmasından, dövlət gənclər siyasətinin işlənib hazırlanaraq həyata keçirilməsi prosesində Ümummilli Liderin danılmaz əməyindən bəhs edilir, gənclərlə bağlı imzalanan sərəncamlar, qəbul olunan Dövlət proqramları, reallaşdırılan layihələrin mahiyyəti açılır. Eyni zamanda xalqımızın və dövlətimizin milli maraqlarında mühüm yer tutan ölkəmizin ərazi bütövlüyünün qorunması uğrunda dahi şəxsiyyət tərəfindən uğurla aparılan siyasətə, strategiyaya, eyni zamanda Böyük Qələbəmizi şərtləndirən qətiyyətli mübarizə yoluna nəzər salınır.

Kitabın "Heydər Əliyev: tarix və tarixi günlər" adlı dördüncü fəslində ***"Xalq gərək daim öz kökünü xatırlasın"***, – deyən Ümummilli Liderin milli tarix konsepsiyasından, tarixi şəxsiyyətlərin, hadisələrin yubileylərinin qeyd olunması, əlamətdar günlərin təsis edilməsi barədə imzalanan tarixi sənədlərin əhəmiyyəti üzə çıxarılır, Heydər Əliyev irsində Azərbaycan Xalq Cümhuriyyətinin tarixi rolu qiymətləndirilir. Milli həmrəyliyin banisi kimi Ulu Öndərin dünya azərbaycanlıları arasında birlik, həmrəylik yaradılması üçün həyata keçirdiyi işlərdən, Dünya Azərbaycanlılarının I Qurultayından, həmrəylik və birlik gününün təsis edilməsindən bəhs olunur, 15 İyun – Milli Qurtuluş Günü taleyimizə yazılan tarixi bir gün kimi dəyərləndirilir. 30 ilə yaxın zaman kəsiyində ölkəmizin həyatında baş verən köklü dəyişikliklərin, Azərbaycanın müstəqil bir dövlət kimi möhkəmlənməsində, dünyaya açılmasında, dövlət quruculuğu yolunda tutarlı addımların atılmasında 15 iyunun önəmi izah olunur. Bu fəsildə xalqımızın başına gətirilən 20 Yanvar hadisələrinə gedən yola nəzər salınır, faciənin səbəbləri, nəticələri, dahi şəxsiyyət Heydər Əliyevin 1990-cı il 20 Yanvar soyqırımı ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilmiş yığıncaqdakı çıxışı verilir, uzaqgörən siyasətçinin vaxtında həmin hadisəyə siyasi-hüquqi qiymət verməsinin önəmindən söhbət açılır, bu addımın böyük qətiyyət, inam rəmzi kimi xalqımızın azadlığa, müstəqilliyə gedən yoluna işıq saçdığı vurğulanır.

Monoqrafiyanın "Heydər Əliyev və Naxçıvanın inkişaf strategiyası" adlı V fəslində Ulu Öndər Heydər Əliyevin dünyaya göz açdığı, canı qədər sevdiyi Naxçıvanın inkişafı üçün gördüyü işlərdən, həyata keçirdiyi layihələrdən, verdiyi qərarlardan, imzaladığı sərəncam və fərmanlardan bəhs olunur, dahi şəxsiyyətin xüsusi diqqəti sayəsində burada bütün sahələrin o cümlədən elmin inkişafından danışılır. Həmçinin AXC-Müsavat hakimiyyətinin Naxçıvana dair siyasətinin iflasa uğraması prosesindən, həmin vaxt baş verən siyasi hadisələrdən, cəbhəçilərin qanunsuz əməllərindən, çevriliş cəhdlərindən və Naxçıvanın xilaskarı kimi Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən həmin cəhdlərin, əməllərin qarşısının alınmasından, qədim diyarın insanlarını aclıqdan, səfalətdən, muxtar respublikanı işğaldan qurtararaq nicat yoluna çıxarmasından ətraflı söhbət açılır. Bu fəsildə dahi şəxsiyyətin Azərbaycan dövlətçiliyini, tarixini, elmini, mədəniyyətini dünyada tanıdan Naxçıvan diyarının görkəmli yetirmələrinə yüksək qiymət verməsindən, yubileylərinin qeyd olunması, irslərinin öyrənilməsi, xatirələrinin əbədiləşdirilməsi, yaşadılması üçün gördüyü tədbirlərdən bəhs olunur.

"Heydər Əliyev ideyaları Azərbaycanın uğurlarının əsasıdır" adlı VI fəsildə isə Azərbaycanın dayanıqlı inkişafının əsasında dayanan, ölkəmizin qüdrətlənməsində, böyük uğurlar əldə etməsində Ulu Öndər Heydər Əliyev ideyalarının uzaqgörənliyindən, fenomenliyindən, dahi şəxsiyyətin əsasını qoyduğu siyasətin, işləyib hazırladığı inkişaf konsepsiyasının Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, 1990-cı illərin ağrılı-acılı, həsrətli günlərindən fəxarət dolu Böyük Qələbə məqamına uzanan yoldan danışılır...

*Ümumilikdə, yekun fikir olaraq onu demək olar ki, "Heydər Əliyev İli"nə dəyərli elmi əsər, nəşr töhfələrindən sayılan "Heydər Əliyev siyasəti: tarix və müasirlik" adlı monoqrafiyada akademik İsmayıl Hacıyev yüksək analitik təhlil və düşüncə qabiliyyəti sayəsində özünəməxsus, fərqli aspektlərdən yanaşaraq Azərbaycanın müasir dövlətçilik tarixində baş verən hadisələri, Ümummilli Liderimizin böyük, qüdrətli, yenilməz Azərbaycanı yaratması prosesini fundamental şəkildə geniş oxucu kütləsinə çatdırır. Ən əsası isə monoqrafiyanı nəzərdən keçirdikdən sonra bir aforizmin həqiqətini bir daha dərindən dərk edirsən: Tarix şəxsiyyətləri deyil, şəxsiyyətlər tarixi yaradır!*

**✍ Nail ƏSGƏROV**

## Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar tədbir keçirilib

*Əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət ediblər. Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsində keçirilən tədbiri idarənin rəisi Mehman Məmmədov açıb.*

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin şöbə müdiri Zülfiyyə İsmayılova "Ümummilli Lider Heydər Əliyev və dövlət arxiv quruculuğu" mövzusunda çıxış edərək bildirib ki, ölkəmizdə dövlət arxivlərinə əsl qayğı Ulu Öndərin 1969-cu ildə Azərbaycana rəhbər seçilməsi ilə başlanıb. Həmin dövrdən başlayaraq arxivlərin maddi-texniki bazası möhkəmləndirilib, arxiv idarələri ixtisaslı kadrlarla təmin olunub. Müstəqilliyimizin bərpasından sonra isə 1999-cu il iyul ayının 27-də Azərbaycan Respublikasının Prezidenti Ulu Öndər Heydər Əliyev tərəfindən "Milli Arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Fərman imzalanıb. Mənəvi sərvətimizin böyük hamisi tərəfindən imzalanmış fərmana əsasən tətbiq edilən qanun ölkəmizdə arxiv işi və onun inkişafı ilə bağlı bütün məsələləri əhatə edir, onun strategiyasını, gələcək fəaliyyətinin başlıca istiqamətlərini müəyyənləşdirir. "Azərbaycan Respublikasında Arxiv işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 dekabr tarixli



Fərmanı isə arxiv işinə verilən ən böyük töhfədir. Bu fərmandan irəli gələn vəzifələrin icrası istiqamətində görülən işlərin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsi də 2012-ci ildən tam əsaslı şəkildə təmir olunub müasir avadanlıqlarla təchiz edilmiş binada fəaliyyət göstərir.

Dövlət Arxivinin aparıcı arxeoqrafı Aygün Həmzəyeva "Ulu Öndər Heydər Əliyev və Naxçıvan Pedaqoji Texnikumu" mövzusundakı çıxışında bildirib ki, dahi şəxsiyyətin uşaqlıq və gənclik illəri Naxçıvanla bağlıdır. Diqqətə çatdırılıb ki, bu texnikuma yeddinci sinfi bitirmiş şagirdlər qəbul olunurdu, bunlardan biri də Ulu Öndər Heydər Əliyev olub. Buraxılış sinfi müdavimlərinin 1939-cu ilin may-iyun ayları keçirilmiş imtahanlarının protokolları bizim üçün olduqca dəyərli mənbələrdir. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin fondunda mühafizə edilən imtahan protokollarında aldığı əla qiymətlər Onun təhsili ilə yanaşı, oxuduğu texnikumda da necə nüfuz və hörmət qazandığını aydın şəkildə nümayiş etdirməkdədir.

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin şöbə müdiri Günel Hüseynova "Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü" mövzusunda çıxış edərək bildirib ki, ötən əsrin 90-cı illərində Moskvadan Bakıya, oradan isə Naxçıvana qayıdan Ulu Öndər 1990-1993-cü illərdə muxtar respublikada yaşayıb fəaliyyət göstərib. Məhz həmin dövrdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində milli dövlət atributlarının bərpa olunması haqqında tarixi qərarlar qəbul olunub, müstəqil Azərbaycanın dövlətçilik ənənələrinin formalaşdırılmasına başlanılıb.

**✍ Səbuhi HƏSƏNOV**

# Zəriflik işığında



*Həkimlik – necə də zərif səslənir bu söz. Kiminin xəyalı, kiminin arzusu. Kiminin də ruhuna işləmiş, damarlarına hopmuş bir sənət. Bu sənətin incəliyi, yüksəkliyi ilə bərabər məsuliyyəti, ağırlığı da var. Hamı bu peşəyə yiyələnib, zirvədə ola bilmir. Sözün əsl mənasında, gerçək həkim olmaq üçün gərək bu peşənin hər ilməsi sənin ruhunda yer alsın. Atdığın hər addımda bu sənət yaşadılsın. Həkimlik təkcə xəstəni sağaltmaq deyil, öz şəfqətinlə, sevginlə, o böyük qəlbinlə xəstənin ürəyində yer almaqdır. Ona sağalacağı ümidini verməkdir. Bu müqəddəs peşənin sahibi olaraq hər hərəkətində həkim olduğunu göstərməlisən. Savad, bilik – bunlar, bəlkə də, yetərsiz qalar. Dürüst olmalısan, təmənna güdməməlisən.*

Xəstəni öz yaxının bilib, ona can yandırmalısan. Nəzərə almalısan ki, sən həkimsən. Bu müqəddəs peşəni təmsil edirsən və hər addımda nümunəsən.Vücudunun hər parçası ilə, həm biliyi, həm də xarakteri ilə həkim olan insanlar bizim üçün, biz – Tibb ixtisasının tələbələri üçün ən yaxşı örnəkdir.

Azərbaycan tibb tarixinə nəzər salsaq, Tanrının seçilmiş olaraq yaratdığı, ona əbədiyaşarlıq haqqı verdiyi Zərifə xanım Əliyevanı görərik. Bu möhtəşəm xanım bizim üçün nəinki əsl həkim, həm də əsl ana, qadın, nənə olaraq nümunədir. Axı Zərifə xanım da həkimlik üçün öz canını fəda etmiş, özünü bu şərəfli peşə üçün şam kimi əritmiş, bununla belə həm də ailəsinə, öz doğma ocağına hərarət bəxş etmişdir. Asan deyil Onun kimi biri olmaq. Zərifə xanım qarşısına mükəmməl oftalmoloq olmaq məqsədi qoydu və məqsədinə çatdı. Fəaliyyətə başladığı ilk dövrlərdə ölkənin ağır illəri olmasına baxmayaraq, O öz yolundan dönmədi. Həmin dövrdə ağır xəstəlik olan, geniş yayılmış traxomanın müalicəsi üçün rayonlara gedir, həkim-oftalmoloqlara mühazirə oxuyurdu. Bir baxın bunları etmək üçün necə əzmkar, necə canyandıran biri olmalısan. O öz biliyini paylaşaraq millətinin üzərində olan bu bəlanı birgə dəf etmək istəyirdi. Yenə də Onun xarakterində məğrurluq, əzmkarlıq, zəhmətkeşlik görürük. Bir qadın obrazının ən mühüm xüsusiyyətlərini özündə toplamış sanki. Xalqın yaddaşında O nəinki savadlı alim-həkim, həm də xeyirxah, qayğıkeş, genişqəlbli bir insan kimi qalıb. Onu hamı xoş sözlərlə xatırlayır. Bəlkə də, həyatda bunu bacarmaq ən çətin işlərdən biridir. Gərək qəlbinin dərinliklərində nə qədər sevgi olsun ki, sən onu ətrafa yaya-yaya özün də parlayasan. Belə bir qadın idi Zərifə xanım. Həkimlik peşəsini özünün sevgisi, şəfqəti ilə yoğurmuş qadın. Bizim üçünsə mükəmməl bir insan, böyük şəxsiyyət:

*Dünyalar içində zərifdən zərif*
*Zərif bir dünyasan, Zərifə xanım.*
*Analar inciməz sözümdən mənim,*
*Ən böyük anasan, Zərifə xanım.*

Belə zərif, incə qadının özü kimi incə həkimlik peşəsi vardı. Və bu sənəti həmişə ucalarda tuturdu. Zərifə xanıma görə, bu humanist peşənin adı daim yüksəklərdə olmalı və gələcək nəsillər də buna diqqət yetirməlidirlər. Zərifə xanım bu şərəfli peşəni öz sözləri ilə belə ifadə etmişdi: “Yalnız o şəxs həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir”.

Necə də dərin mənalı bir fikirdir. Elə bu fikirdə Onun necə düşüncəli, necə qəlbi geniş olduğunu görürük. Zərifə xanım bu həyatda günəş kimi parladı. Onun işığı hələ də bizimlədir! Əsrlər keçsə də, o sönməyəcək və daim xalqımız tərəfindən yaşadılacaq. Zərifə xanım elə özü də həkimləri günəşə bənzədərək deyirdi: “Həkim insana günəş qədər lazımdır”. Burada O, gələcək həkimlərə öz peşəsinin məsuliyyətini anlamağa, işində, addımında gerçək həkim, əsl insan olmaq mesajını vermişdir.

Fikrimi bir şeirlə sonlandırıb demək istəyirəm ki, mən də bu ləyaqətli peşənin daVamçısı kimi akademik Zərifə xanım Əliyevanın müdrik yolunu özümə rəhbər tutub, Onun da dediyi kimi, günəş kimi parlayan həkimlərdən olacağam. Layiq görüldüyüm “Zərifə Əliyeva təqaüdü”nə hər zaman layiq olmağa, Onun kimi faydalı, qayğıkeş, gülərüz olmağa çalışacağam. Bu gün Onun yolu mən və mənim kimi bu uca həkimlik peşəsinin davamçıları üçün çox böyük və unudulmaz bir örnəkdir:

*Zərifə xanımın adı, şöhrəti*
*Yaddan çıxan deyil, əbədilikdir.*
*Alim müdrikliyi, həkim şəfqəti*
*Ölçüyə gəlməz*
*Səfərə çıxdımı, alim dedilər.*
*Hamı söhbət açdı səadətindən*
*Evinə döndümü bir qadın, ana*
*Hamıya pay düşdü hərarətindən*
*Əl tutdu bir kimsə düşəndə dara*
*Yaxşılıq etsə də, gətirməz dilə*
*O yandı, alışdı bir ulduz kimi*
*Sönməyib işığı yol gəlir hələ.*

**Püstəxanım QULİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Tibb ixtisası üzrə I kurs tələbəsi, Zərifə Əliyeva adına Fəxri təqaüdçü***

*Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunda sərhəd-nəzarət-buraxılış məntəqəsinin təsis edilməsi dövlətçilik tariximizin mühüm səhifələrdən biri kimi vətəndaşlarımızı qürurlandırdı. Ölkəmizin suveren hüququ və suverenliyinin növbəti təsdiqi hesab edilən bu addım Ermənistanın separatçı əməllərinə təqdirəlayiq cavab, ərazi bütövlüyümüzün tam təmin olunmasının növbəti təzahürü, eyni zamanda Qarabağda yaşayan ermənilərin Azərbaycan hakimiyyətini qəbul etmələri üçün də böyük şansdır. Sərhəd-nəzarət mexanizmi yoldan hərəkət üzrə şəffaflığı, qanunun aliliyini və hərəkətin təhlükəsizliyini təmin edəcək.*

# Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulması növbəti nailiyyətimizdir



***Aylardır, davam edən etiraz aksiyası öz nəticəsini verdi***

Vətən müharibəsində ölkəmizin əldə etdiyi şanlı Zəfərdən ötən müddətdə Ermənistan acı məğlubiyyətin əvəzini müxtəlif çirkin yollarla çıxmağa çalışır, ekologiyamıza zərbə vurur, təbii sərvətlərimizi qanunsuz istismar edirdi. Rusiya sülhməramlı kontingentinin belə qanunsuz fəaliyyətə şərait yaratması və ekoloji terrorun qarşısını ala bilməməsi isə ikrah hissi doğururdu. Ötən ilin dekabr ayından etibarən Azərbaycanın qeyri-hökumət təşkilatlarını təmsil edən ekofəallar, könüllülər və media nümayəndələri Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində təbii sərvətlərimizin qanunsuz istismarına qarşı dinc etiraz aksiyası keçirirlər. Həmrəylik və birlik nümayiş etdirən ekofəalların gecə-gündüz, isti-soyuq demədən mübarizəsi və qanuni tələbləri nəticəsində Laçın-Xankəndi yolunda nəzarət de-fakto Azərbaycan tərəfdən həyata keçirilirdi. Ermənistan bu müddətdə dövlətimizə qarşı qarayaxma kampaniyası aparır, guya, “Laçın yolu blokadadadır”, “Azərbaycan Qarabağda yaşayan erməni sakinlərə qarşı genosid törətməyə hazırlaşır” kimi yalançı bəyanatlarla beynəlxalq ictimaiyyəti çaşdırır, Qarabağda yaşayan erməni sakinlərin Azərbaycana reinteqrasiyasına mane olurdu. Lakin ilk gündən Laçın yolu bağlanmamış, Rusiya sülhməramlıları, Beynəlxalq Qırmızı Xaç Komitəsi, humanitar yüklər rahat şəkildə yoldan keçmişdir. Ermənistanın belə təxribatçı addımları Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulmasını labüd etdi.

***Məntəqənin yaradılması ordumuza və vətəndaşlarımıza qarşı təxribatların sayını azaldacaq, qanunsuz daşınmanın qarşısını alacaq***

10 noyabr 2020-ci il üçtərəfli bəyanatın müddəalarına zidd olaraq Ermənistan və qanunsuz erməni hərbi birləşmələri yoldan silah-sursat, minalar, qadağan olunmuş digər yüklər, hərbi təchizat vasitələri daşımağa davam edirdi.

Hesablamalara görə, son 30 ildə Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərində 1 milyondan çox mina basdırıb və 3 min 360-dan çox vətəndaşımız mina terrorunun qurbanı olub. Onların 290-dan çoxu müharibə başa çatdıqdan sonrakı dövrə aiddir. Bu vəhşiliyə dünya ictimaiyyəti hələ də göz yumur. Dəfələrlə ölkə başçımız tərəfindən yüksək səviyyəli görüşlərdə mina xəritələrinin verilməsi barədə çağırış edilsə də, Ermənistan bu çağırışlara məhəl qoymur. Rusiya sülhməramlı kontingentinin yerləşdiyi Azərbaycan ərazilərində 10 min nəfərdən artıq şəxsi heyəti olan ordunun yaradılması isə yoldan sui-istifadənin növbəti göstəricisidir. Ermənistan tərəfindən daim dəstək alan bu qüvvələr mütəmadi olaraq mina terroru və diversiyalar törədirlər. Ermənistanın üçtərəfli Bəyanatın müddəalarını kobud şəkildə pozan bu addımı, sözsüz ki, cavabsız qalmır. Bu gün dövlətimiz işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi üçün lazımi addımları atır.

***Tezliklə Laçın daxil olmaqla digər azad olunmuş ərazilərə mülki insanlar köçürüləcək***

Dövlətimizin öz suveren hüququndan istifadə edərək ərazilərini qanunsuz mübadilələrdən qorumasına və sərhəd-keçid məntəqələrində nəzarəti təmin etməsinə beynəlxalq ictimaiyyət də hörmətlə yanaşır. Ermənilərin Laçın yolundan sui-istifadə etməsi mülki insanlarımızın həyatı üçün də təhlükə yaradırdı. Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında deyilir: “Sərhəd təhlükəsizliyinin təmin edilməsi, habelə hərəkətin təhlükəsizliyinin həyata keçirilməsi Azərbaycan Hökumətinin preroqativi və milli təhlükəsizlik, dövlət suverenliyi, qanunun aliliyi üçün zəruri şərtdir. Üçtərəfli bəyanat üzrə öhdəliklərə uyğun olaraq Laçın yolundan vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə Azərbaycan Respublikası tərəfindən təhlükəsizlik zəmanəti olan bu əlavə tədbir çərçivəsində Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin bu məntəqədən hər iki istiqamətdə Ermənistana və Azərbaycana şəffaf və nizamlanan keçidi üçün müvafiq şərait yaradılacaq”. Bununla belə xunta rejiminin Xankəndidə toplanmış “Təhlükəsizlik Şurası”nda “aprelin 23-də Laçın-Xankəndi yolunda Azərbaycanın sərhəd-nəzarət-buraxılış məntəqəsi yaratması qarabağlı ermənilərin birmənalı olaraq Azərbaycanın girovuna çevrilməsi deməkdir” kimi bəyanatları, qarabağlı ermənilərin üzləşdikləri təhlükəsizlik və humanitar problemlərin həllinə “canıyananlıq”la yanaşmaları onların ikiüzlü siyasətinin növbəti təzahürüdür. Ermənistanın birtərəfli qaydada Laçın-Xankəndi yolunun üzərində qurduğu postun əksinə olaraq bu məntəqə ermənilərə maneələr yaratmayacaq. Nəinki işğal dövründə yurd-yuvalarından didərgin salınmış Laçın sakinləri geri dönəcəklər, eyni zamanda Azərbaycan bayrağı altında yaşamaq istəyən ermənilər üçün də imkanlar yaradılacaq. Qarabağda yaşayan ermənilər Azərbaycan Prezidenti Administrasiyasının təklifini qəbul edib reinteqrasiya məsələləri üzrə təmaslara başlamalı, Azərbaycan vətəndaşlığını qəbul etməyən ermənilər isə ölkə ərazisini tərk etməlidirlər.

***Yolda Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin postunun qoyulması qanuni və tənzimlənən gediş-gəliş üçün imkan yaradır***

Bəli, Qarabağda yaşayan mülki ermənilər yoldan istifadə edə bilərlər. Bununla bağlı erməni tərəfi və onun havadarlarının verdiyi əks-bəyanatlar tamamilə əsassızdır. Separatçılar, revanşistlər, qanunsuz hərbi birləşmələr və terrorçular Azərbaycan ərazilərində yaşaya bilməzlər. Aprelin 18-də Prezident cənab İlham Əliyev Salyan şəhərində Azərbaycan Televiziyasına müsahibəsində bir çox məsələlərə, həmçinin Qarabağın erməni əhalisinin gələcəyi məsələsinə toxunaraq dedi: ***“Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməli, ya da başqa yaşayış yeri axtarmalıdırlar. Separatçılar da bilməlidirlər ki, onların iki seçimi var: ya Azərbaycan Bayrağı altında yaşayacaqlar, ya da ki, çıxıb gedəcəklər”.*** Ölkə başçısı məcburi köçkünlərin Laçın şəhərinə qaytarılması ilə bağlı dedi ki, keçmiş köçkünlər bu ilin sonuna qədər Laçın şəhərinə qaytarılacaq. Beləliklə, 700-dən çox ailə bu ilin yay aylarında Laçın şəhərində yerləşdiriləcək. Eyni zamanda qanunsuz olaraq məskunlaşma siyasəti aparılan Zabux və Sus kəndlərində işlər aparılır ki, o kəndlərə də ilin sonuna qədər keçmiş köçkünlər qaytarılacaq.

***Praqa və Soçi sənədləri ilə Ermənistan rəhbərliyi Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyıb***

Ötən ilin oktyabr ayında keçirilən Praqa və Soçi görüşləri Azərbaycanın Ermənistan üzərində növbəti diplomatik qələbəsi idi. Ölkə başçısı Soçi görüşündə Dağlıq Qarabağ münaqişəsinin tarixdə qaldığını vurğulayaraq növbəti dəfə bəyan etdi ki, Qarabağ bölgəsində yaşayan erməni əhalisi bizim vətəndaşlarımızdır və biz indi onların öz ərazimizdə həyatını necə təşkil edəcəyimizi heç bir beynəlxalq oyunçu ilə müzakirə etməyəcəyik...Praqa görüşündə isə Azərbaycanın irəli sürdüyü 5 prinsip əsasında sülh müqaviləsinin imzalanması əsas məsələ kimi irəli sürülmüşdü. Beləliklə, Praqa və Soçi görüşlərində Azərbaycan və Ermənistan 1991-ci il Almatı bəyannaməsi əsasında bir-birinin ərazi bütövlüyünü və suverenliyini qarşılıqlı şəkildə tanıdıqlarını bəyan etmiş, həmçinin Ermənistan Azərbaycanın Qarabağ üzərində suverenliyini tanımışdır. Yaxşı olar ki, Ermənistanın rəhbərliyi və digər rəsmi şəxsləri Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü təhdid edən açıqlamalar verməkdən yerinə sülh üçün çalışsınlar.

***“Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda döyüş meydanında. Nəyi ediriksə, dəqiqliklə edirik”.*** *Ölkə başçısının bu fikirləri bu gün də öz təsdiqini Laçın-Xankəndi yolunda Dövlət Sərhəd Xidmətinin sərhəd-buraxılış məntəqəsində Azərbaycanın üçrəngli bayrağının qaldırılması ilə tapdı. Bu tarixi və strateji əhəmiyyətli qərar dövlətimizin, yenilməz, cəsur Azərbaycan Ordusunun növbəti mühüm nailiyyətidir.*

**Güntac ŞAHMƏMMƏDLİ**

## Sahibkarlar Gününə həsr olunmuş konfransda Naxçıvan nümayəndə heyəti də iştirak edib



21 il bundan əvvəl – 2002-ci il 25 aprel tarixdə Ulu Öndər Heydər Əliyev yerli sahibkarlarla, may ayında isə xarici iş adamları ilə görüşüb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il 21 aprel tarixli Sərəncamı ilə 25 aprel tarixi artıq 8 ildir ki, ölkəmizdə “Sahibkarlar Günü” kimi qeyd olunur.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Azərbaycan Respublikasında 2023-cü il “Heydər Əliyev İli” elan edilib. Dahi rəhbərin sahibkarlığın inkişafı ilə bağlı gördüyü işlər və qəbul etdiyi taleyüklü qərarlar ölkədə özəl sektorun yaranmasında və daimi inkişafında mühüm rol oynayıb. Bu məqsədlə hər il olduğu kimi, bu il də aprelin 25-də İqtisadiyyat Nazirliyinin dəstəyi, nazirliyin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatçılığı ilə Sahibkarlar Gününün səkkizinci ildönümünə həsr olunmuş “Heydər Əliyev və Azərbaycanda sahibkarlığın inkişafı” mövzusunda konfrans keçirilib.

Bu konfransda Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti də iştirak edib. Qeyd edək ki, nümayəndə heyətinin tərkibinə muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərindən “Cahan Holdinq” Kommersiya Şirkətləri İttifaqının, “Arkoz Holdinq”in, “Nəqşicahan Holdinq” Şirkətlər Qrupunun, “Ləzzət Qida Sənaye”, “NaxPlast” Məhdud Məsuliyyətli cəmiyyətlərinin və “Müasir məkan” ət və ət məhsulları müəssisəsinin nümayəndələri daxil edilib.

Tədbirdə Ulu Öndərin həyat və fəaliyyətinə, Azərbaycanın inkişafı və çiçəklənməsi, o cümlədən sahibkarlığın inkişafı sahəsində gördüyü işlərə həsr olunmuş “Əbədiyyətin ilk əsri. Heydər Əliyev 100” filmi nümayiş olunub.

Konfransın sonunda Prezident cənab İlham Əliyevə konfrans iştirakçıları adından müraciət qəbul olunub. Tədbir bədii hissə ilə başa çatıb.

Konfrans çərçivəsində “Gülüstan” sarayının foyesində Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotosərgi təşkil edilib.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğunun, Naxçıvan Muxtar Respublikasının Təhsil, Gənclər və İdman nazirliklərinin, "Günəş" uşaq akademiyasının təşkilatçılığı ilə Türkiyənin 23 aprel – Milli Suverenlik və Uşaq Bayramı Günü münasibətilə tədbir keçirilib. Əvvəlcə hər iki ölkənin ərazi bütövlüyü, suverenliyi uğrunda canlarından keçən Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib.*

# Naxçıvanda ilk dəfə Türkiyənin 23 aprel – Milli Suverenlik və Uşaq Bayramı Günü qeyd edilib






Tədbirdə "Günəş" uşaq akademiyasının direktoru Ulduz Əliyeva və Araz Doğa və Azərbaycan Kültür Dərnəyinin rəhbəri Sərpil Önal çıxış edərək akademiya və dərnəyin fəaliyyətləri, Azərbaycan-Türkiyə dostluğunun daha da sıxlaşmasına xidmət edən, uşaqlarla birgə həyata keçirilən layihələrdən, görülən işlərdən danışıblar.

Sonra Türkiyə Xarici İşlər Nazirliyinin 23 aprel – Milli Suverenlik və Uşaq Bayramı Günü münasibətilə hazırladığı videoçarx nümayiş olunub.

Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya çıxışında tədbirin təşkilində əməyi keçənlərə təşəkkür edib, uşaqlara bayram təbriklərini çatdırıb, 23 aprel tarixinin önəmindən danışıb. Bu bayramı Naxçıvanda qeyd etməkdən böyük məmnunluq duyduğunu ifadə edən Baş konsul bildirib ki, Türkiyə Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümünə təsadüf edən builki 23 aprel bayramı hər birimiz üçün mühüm əhəmiyyət daşıyır. Eyni zamanda bu il Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin də anadan olmasının 100-cü ildönümüdür. Hər iki dahi lider – həm Mustafa Kamal Atatürk, həm də Ulu Öndər Heydər Əliyev Türkiyə və Azərbaycanın qardaşlaşması, dostlaşması yolunda böyük işlər görüblər. Bu gün ölkə prezidentləri cənab İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən tərəfdaşlıq, müttəfiqlik əlaqələri yüksələn xətlə inkişaf etdirilir. Azərbaycan-Türkiyə tərəfdaşlığı bütün dünya üçün nümunədir. Bu əlaqələrin gələcək inkişafında, şübhəsiz, indiki uşaqların da üzərinə mühüm vəzifələr düşəcək. Bu baxımdan 23 aprel – Milli Suverenlik və Uşaq Bayramı Gününün qədim türk diyarı Naxçıvanda geniş şəkildə qeyd edilməsi, bu vəsilə ilə hər iki ölkənin uşaqlarının bir araya gətirilməsi olduqca önəmlidir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov, gənclər və idman naziri Ramil Hacı çıxış edərək uşaqlara bayram təbriklərini çatdırıb, ölkəmizdə həyata keçirilən dövlət uşaq siyasətindən danışıblar. Çıxışlarda qeyd olunub ki, qardaş Türkiyənin Milli Suverenlik və Uşaq Bayramı Günü bütün dünyada uşağa verilən dəyərin ən gözəl nümunələrindəndir. Uşaqların gələcəyi ölkənin gələcəyi deməkdir. Vurğulanıb ki, Azərbaycanda uşaqların sağlam, firavan böyüməsinə, onların hüquqlarının yüksək səviyyədə qorunmasına xidmət edən dövlət siyasətinin əsasını qoymuş, daim uşaqlara böyük qayğı və diqqət göstərmiş Ümummilli Lider Heydər Əliyevin siyasi irsini layiqincə yaşadan Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün bütün sahələrdə olduğu kimi, uşaq hüquqlarının qorunması, uşaqların sosial müdafiəsinin gücləndirilməsi, hərtərəfli inkişafı, ən əsası Vətən və xalq üçün layiqli övlad kimi yetişməsi istiqamətində genişmiqyaslı işlər görülür. Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı da uşaqlarımızın da timsalında möhkəmləndiriləcək və yaşadılacaq.

Bayram tədbirində Türkiyənin 23 aprel – Milli Suverenlik və Uşaq Bayramı Günü münasibətilə hazırlanan, Türkiyədə həyata keçirilən dövlət uşaq siyasətini əks etdirən videoçarxa baxılıb, Araz Doğa və Azərbaycan Kültür Dərnəyinin, "Günəş" uşaq akademiyasının üzvləri, "Şərur" Xalq Yallı Ansamblının uşaqlardan ibarət qrupu, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin, Naxçıvan şəhərində fəaliyyət göstərən uşaq bağçalarının fəal uşaqları bir-birindən rəngarəng kompozisiyalarla çıxış ediblər. Ümummilli Lider Heydər Əliyevin, Dahi Öndər Mustafa Kamal Atatürkün kəlamları səsləndirilib, Türk dünyasının şair və yazıçılarının bədii yaradıcılıqlarından parçalar, o cümlədən görkəmli dramaturq Hüseyn Cavidin "Qız məktəbində" şeiri qiraət edilib, musiqilər, rəqslər, baletlər, folklor nümunələri göstərilib.

Tədbir bütün uşaqların birgə ifası ilə başa çatıb.

Tədbirdən sonra ***Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya*** "Şərq qapısı" qəzetinə müsahibə verib. Müsahibədə 23 aprel tarixinin türk xalqı üçün önəmindən söhbət açılıb, Naxçıvanda keçirilən bayram tədbirinin əhəmiyyətindən danışılıb: – Bu gün uşaqlarımıza həsr olunan bayramı Naxçıvanda coşqu ilə qeyd etdik. 23 aprel tarixi türk xalqı üçün çox önəmlidir. 1920-ci ilin 23 aprelində Türkiyənin hər tərəfindən gələn təmsilçilər Türkiyə Böyük Millət Məclisini yaratdılar və bu məclis qurtuluş savaşının idarəçisinə çevrilərək Türkiyənin yenidən müstəqil olmasını təmin etdi. Bu səbəblə 23 aprel bizim tariximizdə hər zaman dəyər kəsb edib. Dahi Öndər Mustafa Kamal Atatürk bu önəmli günü uşaqlara bayram olaraq hədiyyə etmişdir. Uzun illərdir, 23 aprel – Milli Suverenlik və Uşaq Bayramı Günü, təkcə Türkiyədə deyil, bütün dünyada uşaq bayramı olaraq qeyd edilməkdədir. Mən Naxçıvanda fəaliyyətə başladıqdan sonra burada bu bayramın geniş qeyd edilmədiyini öyrəndim və bunun üçün hazırlıqlara başladıq. Bu gün buradakı təşkilatlar da öz dəstəyini göstərdilər, sağ olsunlar, təşəkkürümü bildirirəm. Birgə çox gözəl proqram həyata keçirdik. Gördüyünüz kimi, şeirlər oxundu, rəqslər, xalq oyunları nümayiş olundu, mahnılar səsləndirildi. Uşaqlar öz istedadlarını göstərdilər. Məncə, bu Naxçıvanda bir ilk idi, ancaq son olmayacaq. Gələcək illərdə də bu şənliyi daha geniş şəkildə azərbaycanlı qardaşlarımızın, uşaqların dəstəyi ilə birlikdə qeyd edəcəyik. Mən bir daha əməyi keçən hər kəsə, buraya gələn uşaqlara, valideynlərə təşəkkürümü bildirirəm, təbriklərimi çatdırıram. Türkiyə və Azərbaycan qardaşdır. Bu gün də bunun ən gözəl örnəyini gördük. İnanıram ki, Ümummilli liderlərimiz Mustafa Kamal Atatürk və Heydər Əliyevin göstərdiyi yolda qardaşlığımız, dostluğumuz, sevgimiz hər keçən gün artacaq, biz də bu məqsədlə çalışmağa davam edəcəyik. Bütün uşaqların 23 aprel bayramı mübarək olsun!

***Araz Doğa və Azərbaycan Kültür Dərnəyinin üzvü Alican Akpay*** bayram tədbiri barədə təəssüratlarını bölüşərək dedi: – Bu gün belə gözəl atmosferdə şən günümüzü azərbaycanlı həmyaşıdlarımızla bölüşdüyümüz üçün çox məmnunuq. Tədbir çox gözəl keçdi, doyunca əyləndik, Naxçıvan şəhərində yaşayan uşaqlarla dost olduq. Yəni bizim üçün çox gözəl oldu bu bayram. Naxçıvana ilk gəlişimdən çox şad oldum, gələcək illərdə də buraya gəlməyi çox istəyirəm. Bizə dəstək olan tədbir iştirakçılarına təşəkkürümü bildirirəm. Bütün uşaqların 23 aprel – Milli Suverenlik və Uşaq Bayramı Günü mübarək olsun!

***Araz Doğa və Azərbaycan Kültür Dərnəyinin üzvü Surenaz Yenigün*** bayram tədbiri ilə bağlı təəssüratlarını belə ifadə etdi: – Naxçıvana gəlişimizdən çox şadıq. Mustafa Kamal Atatürkün uşaqlara ərməğan etdiyi 23 aprel bayramı tarix baxımından bizim üçün çox önəmlidir. Ən gözəl bayramımızı burada keçirdik. Həqiqətən də, çox gözəl tədbir oldu. Səhnə də maraqlı idi. Bir-birindən bənzərsiz şeirlər, mahnılar səsləndirildi, rəqs nömrələrini izlədik, musiqiləri dinlədik. Azərbaycanın folklor nümunələrini çox bəyəndim. Tədbirin təşkilinə görə bütün uşaqlar adından təşəkkür edirəm. Bir daha Naxçıvana gəlməyi çox istəyirik.

✍ **Nail ƏSGƏROV**

## Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri və nazirliyin əməkdaşları Sumqayıt Kimya Sənaye Parkı ilə tanış olublar



Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev və nazirliyin əməkdaşları Sumqayıt Kimya Sənaye Parkında olublar.

Görüş zamanı İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Elşad Nuriyev rezidentlər üçün yaradılmış əlverişli şərait, müasir infrastruktur, güzəşt mexanizmləri və xidmətlər barədə, eləcə də ölkədə sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların fəaliyyəti, istehsal edilən məhsullar haqqında ətraflı məlumat verib. Qeyd olunub ki, sənaye parkında yerləşən bir çox müəssisənin istehsal etdiyi məhsullar "Made in Azerbaijan" brendi altında dünya bazarlarına çıxarılır.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev İqtisadi Zonaların İnkişafı Agentliyi ilə əməkdaşlığın, xüsusilə sənaye sahəsində əlaqələrin genişlənməsində, Naxçıvanda yeni yaradılacaq Sənaye Parkının tənzimlənməsi zamanı buradakı təcrübədən, mütəxəssislərin bilik və bacarıqlarından yararlanmaq niyyətində olduğunu bildirib.

Rezidentlərin qeydiyyat proseduru, prioritet sahələr və enerji təchizatı barədə suallar cavablandırılıb. Daha sonra qarşılıqlı maraqdoğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonda Naxçıvandan gələn heyət Sumqayıt Kimya Sənaye Parkının ərazisi və burada fəaliyyət göstərən sahibkarlıq subyektləri ilə tanış olub.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## *"Jurnalistlər üçün hüquq məktəbi"* layihəsinə start verilib



Naxçıvan Dövlət Universitetində ali təhsil ocağının, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi və "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin birgə təşkilatçılığı ilə həyata keçirilən layihənin açılış tədbirində universitetin rektoru , dosent Elbrus İsayev çıxış edib. Qeyd olunub ki, ali təhsil ocağında 2001-ci ildən fəaliyyət göstərən Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası regionda jurnalist mütəxəssislərin yetişdirilməsində mühüm rol oynayır. Jurnalistika ixtisası bu günədək 200-dən artıq məzun bitirib. Çıxışda bu ixtisası bitirən məzunların əksəriyyətinin muxtar respublikada Jurnalistika ixtisası üzrə kadr hazırlığına mühüm töhfə verməsindən, ali təhsil ocağının xarici ölkələrdə də uğurla fəaliyyət göstərən jurnalist məzunlarından bəhs olunub. Rektor universitetin Media Mərkəzini Jurnalistika ixtisası üzrə tələbələrin təcrübə məktəbi kimi qiymətləndirərək burada olan maddi-texniki baza haqqında ətraflı məlumat verib. Diqqətə çatdırılıb ki, universitetdə bu ixtisas üzrə tələbələrin təcrübəsini möhkəmləndirmək məqsədilə "Yeni fikir" qəzeti, "Nuhçıxan" radiosu, Naxçıvan Dövlət Universiteti televiziyası "Qeyrət" nəşriyyatı fəaliyyət göstərir.

Ulu Öndər Heydər Əliyevin ***"Siyasətçilər gələcək siyasəti, jurnalistlər isə gələcək nəsilləri düşünürlər"*** dəyərli fikirlərini tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi səsləndirib. Bildirilib ki, jurnalistika bütün peşə qrupları içində öz üzərinə götürdüyü ictimaiyyətə həqiqəti çatdırmaq missiyası ilə hər zaman fərqlənib. Jurnalistikanın cəmiyyətdə ictimai fikrin formalaşmasında xüsusi rol oynayan peşə sahəsi olmaqla yanaşı, öz peşəsini lazımınca icra etməsi üçün jurnalistin bilməli olduğu çoxsaylı məsələlər, vacib mətləblər diqqətə çatdırılıb. Bütün peşə sahələrində olduğu kimi, jurnalistika sahəsində də mövcud qanunvericiliyin tələblərinə uyğun qoyulan qaydalardan söz açan Səadət Bəktaşi vurğulayıb ki, kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti üçün yaradılmış şəraitdən sui-istifadə edilməməli, insan hüquqlarının tapdanmasına, dövlətin və ictimaiyyətin təhlükəsizliyinin sarsılmasına rəvac verilməməlidir.

"Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Sahil Tahirli 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsini hər bir jurnalistin də ürəyincə olan siyasi hadisə kimi qiymətləndirib. Qeyd edilib ki, Ulu Öndər Heydər Əliyevin milli jurnalistikamızın inkişafı sahəsində ən böyük tarixi xidməti 1998-ci ildə KİV üzərində senzuranın tamamilə ləğvidir. Bildirilib ki, bu gün muxtar respublikada media qurumlarının fəaliyyəti üçün bütün hüquqi zəmin formalaşdırılıb. Hazırda Naxçıvanda onlarla televiziya, radio, informasiya agentliyi, qəzet, elmi-kütləvi nəşrlər, sayt və portallar fəaliyyət göstərir. Vurğulanıb ki, televiziya və radio gündəlik 16 saat yayıma çıxmaqla bərabər "Nuhçıxan" İnformasiya Agentliyi də müntəzəm olaraq informasiya emalı və yayımı ilə məşğul olur.

Tədbirdə Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədri Rauf Əliyev, "Şərq qapısı" qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanovanın çıxışları dinlənilib. Çıxışlarda vurğulanıb ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan media siyasəti bu gün uğurla davam etdirilir. 2021-ci ildə qəbul edilən "Media haqqında" Azərbaycan Respublikasının Qanunu dövlətin media sahəsində fikir müxtəlifliyi və fəaliyyət azadlığını təmin etmək, hər kəsin informasiya ilə təmin olunmasına şərait yaratmaq, jurnalistlər və onların fəaliyyət göstərdikləri media subyektləri üçün bərabər fəaliyyət imkanları verir.

Sonra təlimə start verilib. İştirakçılar Yunis Xəlilovun "Mediada dərc olunan və ya yayımlanan informasiyaya dair tələblər", Əziz Qasımovun "Gizli audio və videolent yazılarından istifadə edilməsinin hüquqi həddləri" mövzusunda mühazirələrini dinləyiblər.

Qeyd edək ki, 3 gün davam edəcək layihənin ikinci günündə Əli Qədimovun "İnformasiya əldə etmək azadlığı Avropa İnsan Hüquqları Məhkəməsinin presedenti müstəvisində", Yunis Xəlilovun "Jurnalistin peşə fəaliyyətində yol verdiyi hüquqi terminlər yanlışlığı və bu problemin həlli yolları" mövzusunda mühazirələri, layihənin sonuncu günündə isə Yunis Xəlilovun "Mülki və cinayət qanunvericiliyi müstəvisində şərəfin, ləyaqətin və işgüzar nüfuzun müdafiəsi", Atilla Öztürkün "İnformasiyanın yayılmasına, informasiya mənbəyinin açıqlanmasına yol verilməyən hallar" mövzularında mühazirələri dinləniləcək.

Sertifikasiya imtahanının sonunda təlim iştirakçılarına sertifikatlar təqdim ediləcək.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Külli miqdarda narkotik vasitə aşkarlandı



Naxçıvan Baş Gömrük İdarəsinin əməkdaşları külli miqdarda narkotik vasitənin ölkə ərazisinə keçirilməsi cəhdinin qarşısını alıblar. Belə ki, Culfa gömrük sərhəd-buraxılış məntəqəsində Azərbaycan ərazisindən tranzit keçməklə İran İslam Respublikasından Niderland Krallığına gedən yük nəqliyyat vasitəsinə gömrük baxışı keçirilib. Rentgen qurğusunda şübhəli təsvirlər əks olunduğundan avtomobil kinoloji xidmət itinin reaksiyası ilə əsaslı yoxlamaya cəlb edilib. Bu zaman avtomobilin yük hissəsindən xalis çəkisi 499 kiloqram 203,9 qram olan kustar üsulla hazırlanmış narkotik vasitə – heroin aşkar edilib.

Faktla bağlı araşdırma aparılır.

***Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi***

26 aprel Beynəlxalq Əqli Mülkiyyət Günüdür

# Əqli mülkiyyət bəşəriyyət üçün əvəzolunmaz dəyərdir

*Müasir və qloballaşan dünyada insan hüquq və azadlıqlarının dövlətlər tərəfindən tanınması ilə aktuallaşan hüquqlardan biri də əqli mülkiyyət hüququdur. Əqli mülkiyyət hüququ insan şəxsiyyətinin özünüifadəsi və inkişafına imkanlar yaratmaqla yanaşı, iqtisadiyyatın inkişafına bilavasitə təsir edə bilən əsas hüquqlardan biridir. Dünyanın iqtisadi baxımdan inkişaf etmiş ölkələrinin əqli mülkiyyət məsələlərinə xüsusi diqqət yetirməsi və əqli fəaliyyətin uğurlu tətbiqi ilə iqtisadi inkişafa yüksəlməsi bu reallığı təsdiq edən faktorlardandır. Məhz informasiya cəmiyyətinin inkişafı üçün əqli mülkiyyət potensialından geniş və səmərəli istifadə bu baxımdan zərurət tələb edir.*



Beynəlxalq aləmdə ölkələrin sosial-iqtisadi inkişafına əqli mülkiyyət məhsullarının müsbət təsiri son qloballaşma dövründə daha da artmaqdadır. Artıq dünyada baş verən proseslər dövlətlərin əqli mülkiyyətlə bağlı məsələlərə xüsusi diqqət yetirməsinə səbəb olmaqla yanaşı, onların qeydiyyatının və tətbiqinin tənzimlənməsinin vahid ixtisaslaşmış beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilməsinə üstünlük verməkdədir.

İçərisində olduğumuz hərtərəfli inkişaf, müasir texnoloji yeniliklər, yeni iqtisadi çağırışlar, sənayedə olan sıçrayış və onun gətirdiyi tanınma ilə bağlı məsələlər əqli mülkiyyətin önəm və əhəmiyyətini artırdığından bu sahənin daha səmərəli təşkili üçün BMT Baş Assambleyasının Qərarı ilə 1967-ci ildə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı təsis edilmişdir.

Əqli mülkiyyət hüquqlarına olan diqqəti və bu istiqamətdə maarifləndirməni gücləndirmək məqsədilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatına üzv ölkələrdə, o cümlədən Azərbaycanda 2000-ci ildən başlayaraq hər il 26 aprel "Beynəlxalq Əqli Mülkiyyət Günü" kimi qeyd olunur. 26 aprel tarixi əqli mülkiyyət sahibləri üçün mühüm məna daşıyır. Əqli fəaliyyət və onun keçdiyi tarixi yol bəşəriyyət üçün xüsusi önəm kəsb etməkdədir. İnsanlıq tarixi dünyamızı addım-addım irəli aparan bu fəaliyyətə borcludur. Bu gün həyatımızda möcüzələr yaradan yeni texnologiyalar, innovativ həllər məhz əqli mülkiyyət sahiblərinin yaradıcılıq məhsuludurlar.

Ölkəmizdə də hər il ənənəvi olaraq bu kimi əlamətdar günlərin qeyd edilməsinin cəmiyyətimizin inkişafı üçün böyük əhəmiyyəti vardır. Dünya miqyasında UNESCO və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı tərəfindən bu əlamətdar günlərin elan edilməsinin əsas mahiyyəti ondan ibarətdir ki, vətəndaş cəmiyyəti əqli mülkiyyət hüququna hörmət etməlidir və bu yanaşma yalnız yaradıcı şəxslər üçün deyil, bütün cəmiyyətin, həmçinin bəşəriyyətin gələcəyi üçün vacib və faydalı hesab olunmalıdır. Bununla yanaşı, əqli mülkiyyətin mədəni irsin zənginləşməsində, davamlı iqtisadi inkişafda və informasiya cəmiyyətinin formalaşmasındakı rolunu diqqətə çatdırmaqdır.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsində əsas hüquqlar kimi təsbit olunan əqli mülkiyyətlə bağlı münasibətlərin tənzimlənməsi məsələsi ölkəmizdə də hər zaman diqqətdə saxlanılmışdır. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 30-cu maddəsində "Hər kəsin əqli mülkiyyət hüququ vardır. Müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur" müddəası öz əksini tapmışdır.

Ölkəmizdə müstəqillik dövründə bu istiqamətdə mühüm işlər görülmüş, əqli mülkiyyətin qorunması və inkişafına diqqət artırılmış, bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə 1996-cı ildə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", 1997-ci ildə "Patent haqqında", 1998-ci ildə "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olunmuş, ölkəmiz 1995-ci ildə Ümumdünya Əqli Mülkiyyət Təşkilatının təsis etdiyi Konvensiyaya və Avrasiya Patent Konvensiyasına qoşulmuş, Avropa Patent Təşkilatı ilə əməkdaşlıq əlaqələri qurmuşdur.

Artıq müasir dövrdə innovativ inkişafın təmin edildiyi hər bir ölkədə əqli mülkiyyət məsələlərinin dövlətin əsas prioritet siyasəti kimi müəyyənləşdirildiyinin və bu sahənin hüquqi yollarla tənzimləndiyinin şahidi oluruq. Məhz bu gün Ümummilli Lider Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də bu sahənin yeni dünya nizamı tələbləri çərçivəsində qurulduğunu və ölkəmizdə həyata keçirilən məqsədyönlü iqtisadi siyasətin qeyri-neft sektorunun inkişafına yönəldilən, təcrübələrə və insan kapitalına hesablanan innovativ iqtisadiyyatın inkişafına xidmət etdiyini görürük. Cəmiyyətimizdə əqli mülkiyyətə iqtisadi faktor kimi artan maraq da bütün bunların əyani sübutudur. Sürətlə dəyişən dünyada Azərbaycan getdikcə öz mövqeyini möhkəmləndirir və dünya ölkələri sırasında layiqli yerini tutur.

Məlum olduğu kimi, iqtisadiyyatın qeyri-neft sektoru insanların bazar iqtisadiyyatı prinsiplərinə uyğun qaydada müxtəlif məhsulların istehsalı, işlərin görülməsi, xidmətlərin göstərilməsi kimi çoxşaxəli fəaliyyətini əhatə edir. Bu prosesdə əqli fəaliyyətin nəticələrinin meydana çıxması, elm, texnika, digər sahələrdə keyfiyyətcə yeni nəticələrin əldə olunması, istehlakçıların tələblərinə uyğun yeni məhsulların yaradılması inkişaf məqsədilə görülən mühüm tədbirlərdəndir. Əqli mülkiyyət potensialı hesabına elm və cəmiyyətin inkişafı üçün əlverişli şərait təmin edilir, əqli mülkiyyətin biliklərə əsaslanan iqtisadiyyatın inkişafında güclü vasitəyə çevrilməsi rəqabətqabiliyyətli iqtisadiyyata dəstək verir. Bu baxımdan iqtisadiyyatı sürətlə inkişaf edən Azərbaycan Respublikası üçün əqli mülkiyyətin iqtisadi əhəmiyyəti danılmazdır.

Son illər beynəlxalq fenomenə çevrilmiş əqli mülkiyyət hüquqları sahəsindəki yeni çağırışlarla əlaqədar, Prezident cənab İlham Əliyevin səyi və dəstəyi nəticəsində müvafiq islahatlar aparılır, qanunvericilik və normativ-hüquqi baza daha da zənginləşdirilərək daima təkmilləşdirilir. Bu sahədə idarəçiliyin təkmilləşdirilməsi, kadrların peşəkarlıq səviyyəsinin artırılması üzrə işlər ardıcıl olaraq davam etdirilir. Təbii ki, həyata keçirilən bu məqsədyönlü islahatlar, əqli mülkiyyətin dünya iqtisadiyyatındakı yeni mahiyyətindən irəli gəlir.

Əqli mülkiyyətin sahələri olan ixtiralar, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsi ölkəmizdə Ümumdünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdırılmış normativ-hüquqi aktlarla tənzimlənməkdədir. 2012-ci ildə "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun qəbul olunması bu sahədə həyata keçirilən tədbirlərin əhatə dairəsini daha da genişləndirmişdir. Zamanla ölkəmizdə yaradıcı fəaliyyətin nəticələrinin hüquqi mühafizəsinə əlverişli zəmin yaradılmış, əqli mülkiyyət hüquqlarının qorunması sahəsində beynəlxalq sistemə inteqrasiya uğurla həyata keçirilmişdir.

Ölkəmizdə olduğu kimi, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da əqli mülkiyyət hüquqlarının qorunmasına ciddi diqqət yetirilir və bu sahədə ardıcıl işlər həyata keçirilir. Xüsusən son dövrlərdə muxtar respublikada innovativ iqtisadiyyata keçid istiqamətində qəbul edilmiş mühüm qərarlar, icrası uğurla həyata keçirilən Dövlət proqramları və gənclərin bu istiqamətdə maarifləndirilməsi intellektual kapitala verilən əhəmiyyətin göstəriciləridir. Buna misal olaraq Naxçıvan Dövlət Universiteti şəhərciyində təməli atılan və bu gün inşa işləri davam etdirilən Texnologiyalar Parkını göstərmək olar. Xüsusi memarlıq üslubuna və zəngin dizayn quruluşuna malik bu layihənin müəllifi də elə həmin universitetin Memarlıq və mühəndislik fakültəsinin məzunu olmuşdur. Ən müasir üslubda inşa edilən və yeni texnologiyaların tətbiq ediləcəyi bu Texnoparkın layihəsinə nəzər saldıqda muxtar respublikanın gələcək innovativ inkişafa doğru istiqamətlənmiş hədəfləri və gələcəkdə qazanılacaq nailiyyətləri görmək mümkündür. Bu tədbirlərin davamı olaraq muxtar respublikamızdakı tədris müəssisələrində elm və təhsilin yeni standartlar çərçivəsində inkişafına yönəldilən və yaradıcı düşüncəni, elmi-texniki tərəqqini əks etdirən yeni layihələrin-startapların həyata keçirildiyinin şahidi oluruq ki, bu da, öz növbəsində, yeni dövrün tələbi kimi startap anlayışının əhatə etdiyi bütün sahələrdə innovasiyanı və dayanıqlı inkişafı təşviq edir.

Muxtar respublikamızda əqli mülkiyyət sahəsinin inkişafına təkan verən daha bir yenilik də məhz 2020-2021-ci tədris ilindən muxtar respublikada tətbiqinə başlanılan STEAM layihəsidir. Mütərəqqi təhsil metodu kimi əhəmiyyəti nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində STEAM Təlim-Tədris Mərkəzi yaradılmışdır. İlkin olaraq Heydər Əliyev adına tam orta məktəbdə STEAM Tədris Mərkəzi yaradılmış, həmçinin muxtar respublika üzrə bu gün, ümumilikdə, 156 ali və tam orta məktəbdə, lisey və məktəbdənkənar təhsil müəssisələrində STEAM kabinələri qurulmuşdur ki, bu layihənin icrası ümumtəhsil məktəblərində təhsil alan şagirdlərin STEAM təhsilindən yararlanmasına imkan yaradır. STEAM kabinələrinin lazımi avadanlıqlarla (3D printer, 3D çap materialı, 3D qələm və sair) təchiz olunması, həmçinin təlimə aid metodiki vəsaitlərin, eləcə də orta məktəb səviyyəsində dərsliklərin və proqramların çap olunaraq istifadəyə verilməsi uşaq, yeniyetmə və gənclərdə XXI əsr bacarıqlarını, kreativlik, tənqidi düşüncə, müxtəlif proqramlaşdırma dillərini tətbiq etməklə müasir informasiya-kommunikasiya texnologiyaları avadanlıqlarından və robotexnikanın imkanlarından istifadə edə bilmə qabiliyyətlərini inkişaf etdirir, yaxın gələcəkdə yeni ixtiraların təməlini qoyur, müasir dövrdə yeni əqli mülkiyyətin formalaşmasına şərait yaradır.

Muxtar respublikada investisiya mühitini yaxşılaşdırmaqla istedadlı gənclərin üzə çıxarılmasında və kadrların gələcək karyera imkanlarının genişlənməsində dövlət tərəfindən göstərilən xüsusi diqqət və qayğı olduqca mühüm əhəmiyyət kəsb edir. Məhz diyarımızda həyata keçirilən gənclər siyasəti burada elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş fəaliyyətin stimullaşdırılmasına öz töhfəsini verməkdədir. Bu gün muxtar respublikamızda gənclərin diqqət və qayğı ilə əhatələnməsi, onların intellektual inkişafı, yaradıcılıq meyillərinin aşkarlanması və bu istiqamətdə əqli mülkiyyətin yüksək dəyər olduğunu təbliğ etmək olduqca vacib məsələlərdəndir. Təşkil olunan yerli və beynəlxalq tədbirlərin, maarifləndirici seminarların, görüşlərin də əsas məqsədi bu məsələlərə diqqəti cəlb etməkdir.

Bütün bunlarla yanaşı, 2009-cu il may ayının 12-də Naxçıvanda keçirilən "Əqli mülkiyyət və ənənəvi biliklər" mövzusunda Beynəlxalq Simpozium muxtar respublikada əqli mülkiyyət sahəsinə göstərilən diqqət və qayğının aydın təzahürüdür. Məhz bu istiqamətdə görülən işlər muxtar respublikamızda əqli mülkiyyət sistemlərinin daha da aktiv formalaşmasına zəmin yaratmaqdadır.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən elm və təhsil müəssisələrinin nümayəndələri, o cümlədən AMEA Naxçıvan Bölməsinin əməkdaşları əqli mülkiyyət sahəsində ixtiralar üzrə patent almışlar. Bu patentlər dəfələrlə respublika əhəmiyyətli müsabiqələrdə yer tutmuş və mükafatlandırılmışdır. Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti öz fəaliyyətini muxtar respublikada innovasiyalı inkişafla bağlı həyata keçirilən iqtisadi siyasəti dəstəkləyən xidmətlərin göstərilməsi, əqli mülkiyyətin mühafizəsinin formalaşdırılması və müasir dövrün tələblərinə uyğunlaşdırılaraq sənayedə tətbiqinin dəstəklənməsi kimi mühüm funksional vəzifələrlə həyata keçirir. Xidmət sənaye mülkiyyəti obyektlərinin mühafizəsi üçün əqli mülkiyyətin qorunması sahəsində mütəmadi tədbirlər təşkil edərək muxtar respublikada patent sahəsinin inkişafını diqqət mərkəzində saxlayır. Yeni texnologiyaların iqtisadiyyata tətbiqini dəstəkləmək, bu istiqamətdə əqli mülkiyyətin rolunu artırmaq və innovasiyaların reallaşdırılmasına töhfə vermək əsas hədəflərdəndir.

Fəaliyyəti dövründə xidmətin Patent şöbəsinə ixtira, sənaye nümunəsi, faydalı model, əmtəə nişanı və coğrafi göstəricilər üzrə 2341 müraciət daxil olmuş və müvafiq prosedurlara uyğun olaraq ekspertizası aparılmışdır. Bu dövr ərzində iddiaçılara, ümumilikdə, 1403 mühafizə sənədi verilmişdir. Əqli mülkiyyət hüquqlarının qorunmasına, bu sahədə maarifləndirmə işlərinin genişləndirilməsinə və əqli yaradıcılıq nəticələrindən qeyri-qanuni istifadənin qarşısının alınmasına xüsusi diqqət yetirilir.

*Muxtar respublikada əqli mülkiyyətin inkişaf etdirilməsi, ixtiraların istehsalatda tətbiqi və patentlərin beynəlxalq mühafizəsi işi bundan sonra da üstün istiqamət kimi davam etdiriləcəkdir.*

**Kamran MEHBALIYEV**
***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

## Naxçıvan idmançısı Kaliforniyada qızıl medal qazanıb



Naxçıvan idmançısı Amerika Birləşmiş Ştatlarında (ABŞ) "Legasy Judo Tournament" adlı turnirdə qızıl medal qazanıb.

Məlumata görə, Kaliforniya ştatının Santa Klara şəhərində reallaşan yarışda həmyerlimiz Oğuzxan Quliyev də iştirak edib. O, 10-12 yaşlı oğlanlar arasında 38 kiloqramdan aşağı çəki dərəcəsi üzrə Azərbaycanı təmsil edib. İdmançımız ilk görüşündə Cənubi Koreya təmsilçisi Hajoon Lee, ardınca isə ABŞ-dan olan rəqibi Asher Hiat üzərində qələbə qazanaraq qızıl medala layiq görülüb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***


### İtmişdir

Musayeva Zərifə Həsən qızının adına 1996-cı il 11 dekabr tarixində qeydə alınan Naxçıvan şəhəri, "İstiqlal" küçəsində yerləşən üç otaq, dəhliz, ümumi sahəsi 59,44 kvadratmetr, o cümlədən yaşayış sahəsi 46,38 kvadratmetrdən ibarət olan, bina 87/12 nömrəli yaşayış evinin 5028 inventar nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər Xətai məhəlləsi, döngə 6, ev 11 ünvanında yaşamış Tağıyeva Şövkət Əliqulu qızının adına olan 20188 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Çomaxtur kənd sakini Əmirova Rahilə Qəhrəman qızının adına olan JN-342$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Türkiyə Respublikasının vətəndaşı Aişeoğlu Osman Talatın adına olan U 29389051 nömrəli pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Düdəngə kənd sakini Hüseynov Nəsib Bilal oğlunun adına verilmiş 875$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Düdəngə kənd sakini Hüseynov Azad Bilal oğlunun adına verilmiş 876$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Hacıyev Qinyaz Əli oğlunun adına olan evin 2231 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Seyidova Elmira Mirməhəmməd qızının adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Məmmədov Nizami İmamqulu oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Çərçiboğan kənd sakini Hüseynov İlqar Məmməd oğlunun adına olan 102013002481-10301 reyestr nömrəli texniki pasport və çıxarış itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Aşağı Aralıq kəndində yaşayan Cəfərov Məhəmməd Nəsimi oğlunun adına olan 0201234112 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 293